*Quliyeva Aytən.Əbdürrəhim bəy Haqverdiyevə ünvanlanmiş məktublar // Elmi əsərlər,2020,2(11),iyul-dekabr,s.28-33.*

UOT 821.512.162

**Quliyeva Aytən,**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA –nın Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
a.quliyeva@mail.ru

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVƏ ÜNVANLANMIŞ MƏKTUBLAR

**Açar sözlər:** *epistolyar irs, arxiv, yazıçı, məktub, təbrik*

**Giriş.** *AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 32 ədəbiyyat və mədəniyyət xadiminin şəxsi arxivi qorunub saxlanılır. Arxiv sənədləri içərisində epistolyar irs xüsusi əhəmiyyət kəsb edir. Aid olduqları dövrün mühüm ictimai-siyasi, ədəbi, mədəni hadisələri və problemləri yazıçı məktublarında aydın əks olunmuşdur. Məktublar mövzu etibarilə zəngin və rəngarəngdir. Məktublarda dövrünün, müasirlərinin yazıçıya münasibəti verilir.*

**Əsas mətn.**Əbdürrəhim bəy Haqverdiyevin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxivindəki epistolyar irsi onun həyat və yaradıcılığına işıq salır. Bu il anadan olmasının 150 illik yubileyini qeyd etdiyimiz Ə.Haqverdiyevə ünvanlanan məktubların əksəriyyəti tanınmış şəxsiyyətlər tərəfindən Azərbaycandan və həmçinin müxtəlif ölkələrdən göndərilmişdir. Qeyd edilən məktubların bir qismi rus dilində, bir qismi isə azərbaycan dilində ərəb qrafikası ilə yazılmışdır. Ədibi 1922-ci və 1927-ci illərdə qeyd olunmuş yubileyi münasibətilə təbrik etmək üçün “Yeni fikir” qəzetinin redaktoru Rzaqulu Nəcəfovun, Cahangir Zeynalovun və Əliabbas Razinin, Asəf Zeynallının, Gürcüstan Mədəniyyət və İncəsənət Komitəsinin və digərlərinin yazıçıya ünvanladığı məktublar maraq doğurur.

Ə.Haqverdiyevə ünvanlanmış məktublarda ədibin istər ədəbi, ictimai, istərsə də teatr fəaliyyətindən geniş bəhs edilir. Yazıçıya 1922-ci ildə qeyd olunan 30 illik yubileyi münasibətilə Özbəkistanın Buxara şəhərindən göndərilmiş məktub belə başlanır: “Buxara müməssilliyi tərəfindən təbriknamə: Yoldaş Haqverdiyevin ədəbiyyat sahəsindəki fəaliyyətinin otuz sənəlik yubileyi münasibəti ilə tərtib edilən bugünkü təntənəli və tarixi tamaşanı qardaş Buxara əhalisi və onların hürriyət və tərəqqipərvər müstəqil hökuməti tərəfindən ən dərin duyğularla müsariət edirəm. Bu münasibətlə səmimi bir qardaş hissləri ilə azərbaycan qardaş əhalisinə salamlar və bundan böylə sənayeyi-nəfisənin bir cümlə şəbatından dəxi daha böyük və qiymətdar xatirələr buraxmaqda müvəffəq olmalarını diləyirəm. Azərbaycanın pək yaxın bir müddətdə ədəbiyyatını bütün şərqdə yaşayan və şimdiyə qədər tarixləri kimi dilləri də unudulan millətlərə nümuneyi-əmsal ola biləcək radələrini idrak edəcək günləri görmək istərəm.

Azərbaycanın ən fəal qəhrəmanları, qüvvət və siyasətdə deyil, eyni zamanda ürfan və mədəniyyətdə dəxi şərqin məzlum və məqdur millətlərinə yardım edərək onları cavidani bir həyata isal etmək üzrə daima irəli!”[1].

Ə.Haqverdiyev teatra bağlı bir sənətkar olmuş, Azərbaycan xalq teatrlarının inkişaf tarixini araşdıran məqalələr yazmışdır. Yazıçının “Azərbaycanda teatr”, “Müsəlmanlarda teatr”, “Azərbaycanda xalq tamaşaları və dini dramlar” və s. kimi məqalələri teatrımızın problemlərinə həsr edilmişdir. 1913-cü ildə “Səfa” maarif cəmiyyətinin müdiri Cahangir Zeynalov tərəfindən göndərilən məktubda yazılır: “Möhtərəm və mükərrəm Əbdürrəhim bəy əfəndi! “Səfa” maarif cəmiyyətinin teatro heyətinin axırıncı iclasında cənabınızın səh

nə, ədəbiyyat və ictimai işlərdə işləməyinizi nəzərə alıb, sizdən ötrü 1913 və 1914-cü illərin teatro mövsümündə bir yövmi-ali tərtib verməyi qət etdi. Bu yövmi-aliyə cənabınızın razı olacağını ümidvarlıq ilə qəbul edib rica edirik: "Yövmialiyə nə izahat ki, lazımdır, öz həyat-namənizlə və neçə il işləməyinizi yazıb bizə göndərməyinizlə idarəni sərfəraz buyurasınız" [2].

Türk teatrosu artistlərinin ədibə ünvanladığı məktubda isə yazılır: Möhtərəm Əbdürrəhim bəy! Bir millətin tərəqqi və təkamülü o millətin dövri-təməddünə qədəm qoyması ilə olduğu, məlum aliləridir ki, məktəblər vasitəsi ilə olur. "Cocuqluqdakı təhsil, elm daşa həkk olan nəqşə bənzər buyurmuşlar". Bu elm nəqşləri təbiidir ki, cocuqlarımızın zehnində möhkəmlənib onları meydani-mədəniyyətdə cəhl ilə mübarizə etməyə məkatib və mədarisdən dışarı atır. Azərbaycan türkləri əfradından meydani mübarizədə mədəniyyət tərəfdarı qalib gəlmək üçün bir hiyleyi cəng düşündünüz ki, o da cahilləri bir qədər nəsihətpəzir etmək idi. Təbii cühaldan bir cəmi-kəsir səbilik halından çıxdığına görə onların zehnində elm nəxşə bağlamayacaqdır. Bunun üçün siz onlara teatro vasitəsi ilə nəsihət etmək iqdam etdiniz. Digər tərəfdən Azərbaycanda sənayei-nəfisəyə şövqləri olanlara qələmə aldığınız açıq, sadə, lakin ədəbi bir dillə yazdığınız gözəl və həqiqətən məişətimizdən alınan parçalarla 30 sənə müddətində bir zövq, bir qidayi-ruhani verdiniz. Hələ ələldəvam türk aktyorlarına göstərdiyiniz məhəbbət pədəranə! Nə qədər qiymətdar. Bu gün böyləsinə çəkdiyiniz zəhmətlərə mükafat aldığınız gündə türk aktyorları da sizə çox yaşa deyib, bir mükafat verir, o da budur. "Ata", bir çox sənələr yaşayıb təzəyir təlifat ilə türk səhnəsinə yeni əsərləri yetirmənizi təmənna edəriz [3].

Ə.Haqverdiyevin ilk dram və teatr fəaliyyəti Mirzə Fətəli Axundovun adı ilə bağlıdır. Ədibin özünün də qeyd etdiyi kimi, realnı məktəbin dördüncü sinfində təhsil aldığı dövrdə M.F.Axundovun komediyalarına oxşar əsərlər yazmağa başlamışdır. Uşaq təfəkkürünün əksi olan bu əsərlər zaman keçdikcə cilalanaraq mütəfəkkir yazıçı qələminin məhsuluna çevrilmişdir. "Ə.Haqverdiyev teatr məhfumunu çox geniş mənada dərk etmiş, incəsənətin fəal bir növü olmaq etibarı ilə ona real həyatın ümumiləşdirmə və tipikləşdirmə vasitəsi kimi baxmışdır" [4, s.162]. Fərhad Ağazadə məktubunda bu məqama diqqət çəkərək yazır : "Yoldaş Əbdürrəhim bəy!

Bu gün otuz ildir ki, Azərbaycan türklərinin səhnəsində çalışırsınız. Ustadi-möhtərəmimiz olan Mirzə Fətəli Axundovun səhnəmizdə tərbiyələndirib meydana gətirdiyi şagirdlərinin ən böyüyü - sizsiniz desək, yanılmamışıq zənnindəyik. Mirzə Fətəli Axundov birinci teatro əsərini yazarkən əlifbamızın nöqsanlarını düşündü. Arzu edərdik ki, ustadi-möhtərəmin müqəddəs amalını qövlən və felən intişar etməkdə mürşidinizdən geri qalmayıb səhnəçilik fəliyyətinizdə daha da müstəqim, daha da ciddiyyətlə çalışasınız, əfəndim"[5].

Ə.Haqverdiyevin məktublaşdığı və yaradıcılığının ilk tədqiqatçılarından biri görkəmli ziyalı Əziz Şərifdir. O, Ə.Haqverdiyevə həsr etdiyi "Keçən günlərdən" adlı iri həcmli yazısına ədiblə olan yazışmalarını daxil etmişdir. Bu yazı sayəsində hər iki tarixi şəxsiyyətin həyat və fəaliyyəti, dostluq münasibətləri haqqında oxucuda müfəssəl təəssürat yaranır. Ə.Şərif qeyd edilən yazısına Qurbanəli Şərifzadənin də ədiblə olan məktublaşmalarını daxil etmişdir. Ə.Şərifin Ə.Haqverdiyev irsinə müraciəti yazıçının ədəbi fəaliyyətinin 35 illik yubileyi ərəfəsinə təsadüf edir: "1927-ci ildə Ə.Haqverdiyev yaradıcılığının 35 illik yubileyi qeyd olunduğu dövrlərdə Əziz Şərif ilk dəfə Ə.Haqverdiyevin yaradıcılığı haqqında elmi-tənqidi məqalələrlə çıxış etməyə başalmışdır" [6, s.10].

Məlum olduğu kimi, Tiflis mühiti Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığına doğma olan bir məkan idi. Ə.Haqverdiyevin ədəbi fəaliyyətinin 35 illik yubileyi münasibə-

tilə 4 fevral 1927-ci ildə "Gürcü ədəbiyyatı" jurnalı tərəfindən göndərilmiş məktubda yazılır: "Gürcü yazıçılar birliyinin "Gürcü ədəbiyyatı" jurnalının redaksiya heyəti Sizi Türk ədəbiyyatı üçün tarixi gün olan ədəbi fəaliyyətinizin 35 illik yubileyi münasibəti ilə təbrik edir və Sizə türk yazıçılarının, Qafqazın mədəniyyət və ictimai xadimlərinin çətin şəraitində güc arzulayır" [7].

Ə.Haqverdiyevin "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar", "Bəxtsiz cavan" və digər pyesləri Tiflisdə tamaşaya qoyulmuşdur. Onun ədəbi-ictimai fəaliyyətinin 35 illik yubileyi Tiflisdə qeyd edilmişdir. Şair Molla Mahmud Çakər də bu münasibət ilə adibə təbrik məktubu ünvanlamışdır. Məktubda Çakərin Ə.Haqverdiyevə ithaf etdiyi 18 beytdən ibarət şeirlə tanış oluruq: "1927 — fevralın 5-də Tiflisdə Rustavelli teatrosu salonunda dramaturq — ədib möhtərəm: Əbdürrəhim Haqverdiyevin 35 illik yubileyi münasibəti ilə işbu əşarı tərəfimizdən ithafən təqdim olunur:

Əşar

Əya tairi-təbi ali məqərr
Səmayi həqiqətdə aç bal, pər.
Açıb bal, pər seyri-əflak qıl,
Könül lövhəsin zəngdən pak qıl.
Görünsün həqiqət o ayinədə,
Zühura çıxa hər nə var sinədə.
Alım ta ələ xamə təhrir edim,
Bu tarixi bir növ təsvir edim.
Otuz beş il əvvəl, zamani-qədim,
Yazıb, söyləyib fikrin Əbdürrəhim.
O vəhşətli, dəhşətli bir əsrdə,
Olan vəqt, ali-Raman qəsrdə.
Hamı xan, bəy, çarilə həminan,
Qaranlıqda biçarələr bittəmam.
Məkatib açıq sinifi-əyanlara,
Əsarət, həqarətdə dehqanlara.
Maarif yolu bağlı, millət avam
Nə məktəbdə xəlqi-avama məqam.
Həqiqət məcaz ilə məsturkən
Hamı xanü bəy cümlə məsrurkən.
Deyərdi sözün butəda müstəqim,
Ki yəni bu Haqverdov Əbdürrəhim.
Sürərkən, əkərkən, yeri rəncbər,
Olarkən yazıq rəncbər bisəmər.
Əkən rəncbər, keyf edən xan ikən,
Yazıq kəndlinin şüğli əfqan ikən.
Yaz əyyami rəncur, qış fəsli övr,
Keçərkən yazıq kəndliyə iş bu cür.
Verərəkən hamu xanu bəy ələ-ələ,
Var ikən hamı kəndçidə vəl-vələ.
Gecə-gündüz işrətdə xanu-bəy tamam,
İşıq, gün yazıq kəndliyə sanki şam.
Nə zəhmətdə qüvvət, nə dehqanda tab,

Nə rəsmi üxüvvət və nə intisab.
Cəhalət olarkən cahanda müqim,
Deyərdi, yazardı bu Əbdürrəhim [8].

Əbdürrəhim bəy Haqverdiyevin 1927-ci ildə Tiflisdə keçirilmiş yubiley mərasimi haqqında yazılır: "Mərasimdə rəsmi şəxslər, ayrı-ayrı respublikaların, o cümlədən Gürcüstanın teatr ictimaiyyətinin nümayəndələri, şair və yazıçılar yubilyarı təbrik etmiş, Tiflis Azərbaycan Dövlət Dram Teatrı aktyorlarının iştirakı ilə dramaturqun "Bəxtsiz cavan" pyesinin ikinci pərdəsi və "Ac həriflər" pyesləri oynanılmış, eyni zamanda böyük konsert verilmişdir"[9]. Ə.Haqverdiyevi təbrik edən Hüseyn Rzazadə Münşi isə öz geniş həcmli məktubunda yazır: "Möhtərəm rəfiqim, əziz qardaşım Əbdürrəhim bəy!

Ədəbi və ictimai həyatda 35 il fəaliyyətdə bulunub və bu yolda sərf etdiyiniz zəhmətlərin nəticəsi olaraq 35 illik "yubiley"inizi səmimi qəlbdən təbrik etməklə iftixar edirəm həmişə...

Bu qüvvə ona ki yoxdur sani
Xaliqmi o qüvvə, ya təbiət?
Ol qüvvə pakidən əyani
Hər sübhi-məsha bi hüsni niyyət.
Daim sən üçün bu xoş duanı
Etməyə edirəm cəsarət.
Versin sənə feyzi-asimanı,
Ol mənbəyi-fəzli-lütfi-rəhmət...
Ol qədri bəqadur zindəgani
Tofiqi həyati istiqamət.
Novi vətənə bir canfəşani
Sərf etməyə qeyrətü-həmniyyət...

Burası məlum və aşkardır siz böylə bir əsrdə nəşat etiniz ki, azərbaycan camaatı elm və maarifdən bikülli bibəhrə, zalımların zəncir əsarəti altında təzyiq olunurdu. Siz bu vəziyyəti nəzərə alıb məzlum camaatı elm və maarifə təşviqə və sövq etdiniz. Kütlənin hansı bir mühit, şərait içərisində yaşamağını onlara anladıb həyatı təsvirə başladınız. ...sizin amalınız və əfkarınız daima ümumun səadətin çalışmaq və onları girdab cəhalətindən nicat vermək olubdur. Siz nəinki fəqət bir ədib və faciənəvissiniz sizin ictimai işlərdə də göstərdiyiniz fəaliyyət və sərf etdiyiniz ğayrət və səmimiyyət mütləq unudulmaz. Əsari qiymətdarınız bagi və isminiz tarix vərəqlərində səbat və zəbt olar...

Bir kütlə içində nagahani
Etdin elə bir zamanda nəşət.
Bir bərbad idi elm dudmanı
Mənsux idi tam adəmiyyət.
Məhv idi maarifin nişanı
Məmul idi sərbəsər cəhalət.
Zalımlar edərdi kamurani
Məzlumlara bütün əsarət.
Ol kütlədəki bütün cavani
Təlsili-elmsə deyərdin adət.
Özünü isə etdin əyani
Elm və mədəniyyət və məişət.
Verdin nə gözəl bir imtahanı
Bu şivəni eylədin riayət.

İsmin olacaqdı cavidani
Tarix vərəqlərində zinət.
Versin sənə həqq bir kamranı
Bundan sonrada müvəffəqiyyət.

Bu bayram münasibəti ilə sizi təbrik etməkdə özümü bəxtiyarədd edirəm və gələcəkdə bir çox yıllar səadət ilə yaşamağınızı arzu dəxi də böyük-böyük müvəffəqiyyətlərə nail olmağınızı səmimi qəlbdən təmənna edirəm. Zati-alilərinizə nisbət ehtiramat qardaşlıq salamını təqdim edirəm...

Möhtərəm qələmdaşım, əlinizi sıxıb sizi öpürəm. Çox yaşa! Yaşa! Yaşa![10].

Publisist, ictimai xadim Rzaqulu Nəcəfov da yazıçını məktub vasitəsi ilə təbrik edənlər sırasında olmuşdur: "Əzizim Əbdürrəhim bəy!

Teatromuzun repertuar və bədaye komissionu son cəlsəsində böylə qərara gəldi ki, bu yanvarın 28-də, cümə günü sənə bir yubiley tərtib etsin. Nərimanov klubunun ..... sədarətinə dəxi bu məsələ danışılıb, təsdiq olundu. Yubiley komissionu mənim sədarətim altında fəaliyyətə başlamışdır.

İstəyirik yubiley axşamı "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu"dan bir pərdə və axırda konsert şöbəsi düzəldək. Konsertə Bülbül ilə Qurbanı dəvət edəcəyik. Məsələ ondadır ki, hazırlıq yapacayıq və sənin bizə köməkliyin lazımdır. Əvvəla tərcümeyi-halın və əksin.

İkinci – 25 yanvar sənin üçün əlverişlimidir və gələ bilərsənmi! Bir də bu yubiley gərək ki, sənin 35 illiyindir. Onu mənə yaz ki, bilim. Bir də sən Qurban və Bülbül ilə danış, vaxt al, gör nə vaxt gələ bilərlər ki, bizim təyin etdiyimiz gün ilə mütabiq olsun. Ümumiyyətlə, nə sözün var yaz. Əgər yanvarın 28-ində gələ bilməzsən, yaz görək nə vəqt sənə mümkündür gəlməyin. Biz fevrala da təxirə edə bilərik. Yalnız cümə günü olmalıdır. Sənə təntənəli bir yubiley verməyə ümidvarız. Maddi cəhətdən ümidim budur ki, pis olmaya. Hələlik. Xanımına salam yetirərək, səni öpüb xudahafiz deyirəm və kağızın cavabını səbirsizliklə gözləyirəm"[11].

**Nəticə.**Aparılan tədqiqat nəticəsində bəlli olur ki, yazıçıların şəxsi arxivlərində mühafizə olunan epistolyar irs ədəbiyyat tariximizə dair materialların əhəmiyyətli hissəsini təşkil edir. Bu baxımdan Əbdürrəhim bəy Haqverdiyevin epistolyar irsi müasir dövrümüzdə də aktuallığını qoruyur. Məqalədə araşdırmaya cəlb olunmuş məktublar istər Ə.Haqverdiyev yaradıcılığının, istərsə də ona məktub ünvanlayan ziyalıların ədəbi-ictimai fəaliyyətinin öyrənilməsi üçün faydalıdır.

## Ədəbiyyat :


1. Buxara xalq şura cümhuriyyətinin Azərbaycan ictimai şura cümhuriyyəti nəzdindəki müməssiliyi nümayəndəliyindən. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 112.
2. Səfa maarif cəmiyyəti. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 61.
3. Türk Teatrosu Artistlərindən. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 113.
4. Kərimov İ. Əbdürrəhim bəy Haqverdiyev və teatr. Bakı: Elm, 1975, 172 s.
5. Ağazadə Fərhad. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 102.
6. Qocayeva G. Nagahan xəyalıma cəhənnəm düşdü (Ə.Haqverdiyevin bədii nəsri mövzusunda). Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2002, 124 s.
7. Gürcü ədəbiyyatı jurnalının redaksiyası. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 109.
8. Çakər. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 108.

9. Bayramov A. Əbdürrəhim bəy Haqverdiyev və Tiflis Azərbaycan teatrı. Mədəniyyət qəz., 2012, 13 yanvar, s 13.
10. Rzazadə Hüseyn Münşi. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 111.
11. Rzaqulu. Ə.Haqverdiyevə məktub. Fond 9, s.v. 60.

***Кулиева Айтен***

**ПИСЬМА, АДРЕСОВАННЫЕ АБДУРРАГИМ БЕКУ АХВЕРДОВУ**

**Резюме**

В литературных письмах, адресованных многим известным писателям, имеется значительная информация, яляющаяся объектом исследования истории азербайджанской литературы. В статье исследуется эпистолярное наследие одного из ярких представителей азербайджанской литературы Абдуррагим бека Ахвердова. Результаты этого исследования позволяют нам получить более глубокое представление о жизни и творчестве Абдуррагим бека Ахвердова.

**Ключевые слова:** *эпистолярное наследие, архив, писатель, письмо.*

***Guliyeva Aytan***

**THE LETTERS SEND TO ABDURRAHIM BEY HAGVERDIYEV**

**Summary**

The literary letters contain a very important information to explore the history of literature. One of the prominent representatives of Azerbaijan literature is Abdurrahim bey Hagverdiyev. The article researches Abdurrahim bey Hagverdiyev’s epistolary heritage. There are valuable materials in these letters for more deeply to know Abdurrahim bey Hagverdiyev’s life and works.

**Keywords:** *epistolary heritage, archive, writer, letter*

*Redaksiyaya daxil olma tarixi: 02.12.2020*
*Çapa qəbul olunma tarixi: 16.12.2020*

*Filologiya üzrə elmlər doktoru Nailə Səmədova tərəfindən çapa tövsiyə olunmuşdur.*